REDEMOS

RECONFIGURING EU DEMOCRACY SUPPORT. TOWARDS A SUSTAINED DEMOS IN THE EU'S EASTERN NEIGHBOURHOOD

**Siyasət İcmal Sənədi 2**

# Strateji aydınlıq və qətiyyət: qonşu Avropa regionlarında Rusiya ilə qarşıdurma

İqor Qretskiy

May 2025




Funded by the European Union

The REDEMOS project has received funding from the European Union's Horizon Europe research and innovation programme under grant agreement No 101061738. The Associated Partner University of Surrey has received funding from UK Research and Innovation (UKRI) under the UK government's Horizon Europe funding guarantee under grant number 10040721. The Associated Partner University of St. Gallen has received funding from the Swiss State Secretariat for Education, Research and Innovation (SERI). Views and opinions expressed are, however, those of the author(s) only and do not necessarily reflect those of the European Union, UKRI and SERI. Neither the European Union nor UKRI or SERI can be held responsible for them.

REDEMOS

## Ümumi mənzərə

Rusiya siyasi hakim dairələri həmişə Sovet İttifaqının dağılmasını tam demokratikləşməyə doğru irəliləmə prosesinə başlamaq üçün bir fürsət kimi deyil, SSRİ-nin məğlubiyyətinin və müvafiq olaraq, Qərbin soyuq müharibədə qələbəsinin təcəssümü kimi qəbul etmişdir. Ümumiyyətlə, Kreml qonşu kiçik və orta dövlətlərə böyük dövlətlərin ayrılmaz şəkildə asılı olan təsir obyektləri kimi baxır, və eyni zamanda, xüsusən də Aİ-nin şərq qonşulundakı region Rusiya üçün müstəsna “xüsusi məsuliyyət” ərazisi və beləliklə də, onun özünü böyük dövlət statusunda dərkinin tərkib hissəsi kimi hesab edir.

Mahiyyət etibarı ilə Rusiya köhnə sovet mirası “məhdud suverenlik” anlayışını mənimsəyərək Aİ-nin şərq qonşuluğunda yerləşən ölkələrin öz xarici siyasət kursunu müstəqil müəyyən etmək hüququnu açıq şəkildə inkar edir. Bu yanaşma Rusiyanın Gürcüstan və Ukraynaya qarşı hərbi təcavüzündə, eləcə də Aİ-nin şərq qonşuluğunda yerləşən hər bir ölkəyə qarşı hibrid təxribat fəaliyyətində özünü tam şəkildə biruzə verir. Üstəlik, Kremlin Qərbdən Rusiyaya hüquqi təhlükəsizlik zəmanəti verməsini tələb edən 17 dekabr 2021-ci il tarixli ultimatumu, onun geosiyasi iddialarının şərqdə Aİ ilə həmsərhəd regiondan xeyli kənara çıxdığını göstərir. Bu şəraitdə Aİ üzv dövlətləri öz təhlükəsizliklərini gücləndirmək üçün xarici siyasətlərini uyğunlaşdırmalı, həmçinin Aİ-nin şərq qonşuluğunda yerləşən ölkələrə Rusiyanın onların suverenlik və ərazi bütövlüyünü pozmaq cəhdlərinə qarşı durmaqda kömək etməlidirlər.

## Əsas rəylər

- Rusiyanın Aİ-nin şərq qonşularına yanaşmasında əsas məqsədi onların suverenliyinə xələl gətirmək və həm daxili, həm də xarici siyasət qərarları üzərində effektiv nəzarət yaratmaqdır.
- Rusiya hökumətinin hərəkətləri, geosiyasi mübarizələrdə daha böyük iqtisadi imkana və adambaşına düşən ÜDM-ə malik olanların deyil, informasiya məkanında təşəbbüsü ələ keçirən və öz rəqiblərinə uğurla öz dünyagörüşünü tətbiq edənlərin qalib gəlməsi ehtimalına əsaslanır.
- Moskva Aİ-nin şərq qonşuluğunda, Kremlə açıq-aşkar sadiqlik nümayiş etdirməyə meylli, Rusiyanın geosiyasi hökmranlığına meydan oxumayan və Qərb dünyasına qarşı birləşən ölkələri daha çox dəstəkləyir. Əksinə, açıq şəkildə Aİ və NATO ilə inteqrasiyaya meylli hökumətlər üçün Rusiya mümkün qədər çox problem yaratmağa çalışır və sonra geosiyasi güzəştlər müqabilində israrla əvvəlcədən hazırlanmış həll yollarını təklif edir.
- Rusiya siyasi rəqabət və media azadlığı ilə səciyyələnən ölkələrdə rusiyayönlü siyasi partiyalar yaratmaq və ya onları maliyyələşdirmək və Qərb əleyhinə hekayələrini təbliğ etmək və gücləndirmək üçün media qurumları yaratmaqla inadkar elitaya təzyiqi artırır.
- Kreml Aİ-nin şərq qonşuluğundakı ölkələrdə onların siyasi və sosial institutlarının zəif cəhətlərindən istifadə etməklə və Avropaya inteqrasiya ideyasını gözdən salmaqla xarici siyasətdə üstünlüklər əldə etməyə çalışır.
- Rusiyanın şərqdə Aİ ilə həmsərhəd olan region ölkələrinə münasibətdə xarici siyasəti güclü ətalətlə səciyyələnir və onun xarici fəaliyyəti Rusiya siyasi sisteminin, sosial strukturunun və iqtisadi modelinin xüsusi institusional strukturunda dərin kök saldığından, ən azı orta müddətli perspektivdə əhəmiyyətli dərəcədə dəyişməsi ehtimalı azdır.

## Siyasət üzrə tövsiyələr

- **Avropa təhlükəsizliyin təminatçısı kimi:** həm Aİ-nin hərbi-sənaye sektorunu, həm də Aİ ilə daha sıx əlaqələr qurmaq istəyən Aİ-nin şərq qonşuluq ölkələrində sərt təhlükəsizlik infrastrukturunu əhatə edən uzunmüddətli sərmayə strategiyalarının hazırlanması həyati əhəmiyyət kəsb edir. Eyni zamanda, bu ölkələrin Aİ və NATO-ya inteqrasiyasının sürətləndirilməsi, həmçinin enerji və elektrik təchizatı şəbəkələrinin çeşidləndirilməsinə yatırılan sərmayələrin artırılması əsas amildir.
- **Yeni strateji mesajlar:** Rusiyanın Ukraynaya təcavüzü ilə bir çox Aİ ölkələri Kremllə bağlı xarici siyasət anlayışlarında köklü dəyişiklik baş vermişdir. Bir vaxtlar çətin tərəfdaş kimi tanınan Rusiya, indi daha real olaraq Avropanın təhlükəsizliyinə uzunmüddətli təhdid kimi qiymətləndirilir. Bu tendensiya Aİ-nin Rusiya və Şərq Tərəfdaşlığı ölkələrinə qarşı yenilənmiş ümumi strategiyasında öz əksini tapmalıdır; bu strategiya öz-özünə tətbiq olunan "qırmızı xətlərdən" qaçınmalı və Rusiyadan çəkinməməlidir. Praktikada Ukraynaya silah tədarükünü onların ərazi istifadəsinə dair süni məhdudiyyətlərlə yükləməmək vacibdir. Üstəlik, Qərb hökumətləri Kremlin nüvə şantajına daha az həssas olmalıdır. Qərbin Rusiyaya qarşı tərəddüdü və qeyri-müəyyənliyi Putinin mərcləri yüksəltmək istəyini daha da artırır.
- **Avropada "boz zonalar" olmamalıdır:** Bu prinsip Aİ-nin şərqdə Aİ ilə qonşu olan dövlətlərə münasibətdə xarici siyasətinin köklü əsasını təşkil etməlidir. Qonşu ölkələrin suverenliyi bahasına Kremllə güzəşt razılaşmaları əldə etmək ümidi ilə bu qaydadan kənara çıxmaq son nəticədə Avropanın strateji məğlubiyyətinə səbəb ola bilər. Aİ-nin şərq qonşuluğunda yerləşən, Avropaya inteqrasiyaya can atan və siyasi və sosial institutlarında islahatlarda irəliləyiş əldə edən ölkələrin revizionist Rusiyanın təhdidləri ilə üz-üzə qalmamalarını təmin etmək həyati əhəmiyyət kəsb edir.
- **Rusiya təbliğatına sıfır dözümlülük:** Rusiya təbliğatının Aİ-nin informasiya landşaftına təsirinin qarşısının alınması məqsədini nəzərə alaraq sayıqlıq vacibdir; oxşar təcrübələr Aİ-nin Şərq qonşuluğundakı ölkələrdə də təşviq edilməlidir. Aİ-yə üzv dövlətlərin və namizəd ölkələrin KİV-də rus narrativlərinin yayılmasının qarşısını almaq üçün birgə səylər vacibdir və bu əks fəaliyyət onların təhsil sistemlərinin bütün səviyyələrində qabaqcıl tənqidi düşüncə və rəqəmsal savadlılıq proqramlarının tətbiqi ilə dəstəklənməlidir. Bundan əlavə, Aİ-də nifrət nitqi və dezinformasiya ilə məşğul olan Rusiya KİV-lərinin fəaliyyətinin dayandırılması üçün müvafiq prosedurları təkmilləşdirmək lazımdır. Kremlin təbliğat telekanallarının bəzi ölkələrdə qadağan olunduğu, eyni zamanda digərlərində isə auditoriyaya məhdudiyyətsiz çıxış əldə edəcəyi bir vəziyyəti istisna etmək lazımdır.

Tam araşdırmanı – **REDEMOS D7.2 Aİ-nin Şərq Qonşuluğu regionunda xarici norm iddiaçılarının narrativləri** – aşağıdakı keçiddən əldə etmək mümkündür: https://redemos.eu/resources/publications/working-papers/

**REDEMOS: REconfiguring EU DEMOcracy Support.**
**Towards a sustained demos in the EU's Eastern Neighbourhood**

REDEMOS- 101061738
HORIZON-CL2-2021-DEMOCRACY-01-04

**Dr Mădălina Dobrescu, NTNU**
**info@redemos.eu**

redemos.eu @REDEMOS_eu REDEMOS Horizon Europe Project